# Xalq şairi Nigar Rəfibəylinin 110 illiyi münasibətilə tədbir keçirilib



Xəzər Universiteti Dünya Məktəbində Xalq şairi Nigar Rəfibəylinin 110 illiyi münasibətilə "Dünyaya məhəbbət borcum var mənim" adlı gecə keçirilib. Gecədə Xalq yazıçısı Anar və digər görkəmli qələm sahibləri iştirak ediblər.

Professor Hamlet İsaxanlı, professor Qəzənfər Paşayev, yazıçı Nüşabə Əsəd Məmmədli, Rəsul Rza və Nigar Rəfibəylinin qızı Fidan xanım, Günel Anarqızı çıxış edərək Nigar Rəfibəylinin yaradıcılığı barədə fikirlərini bölüşüb, görkəmli şairlə bağlı xatirələrini tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Tədbir musiqi proqramı ilə davam edib.

Nigar Rəfibəylinin şeirlərinə şagirdlərin çəkdiyi rəsm əsərləri sərgisi keçirilib.